İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 DEKABR 2021-Cİ İL №024 (147)

Səh. 2 ASİ - İBRAHİMXƏLİL YAZIR

Səh. 3 KEÇMİŞLƏ GƏLƏCƏK ARASINDAKI KÖRPÜDƏ - HACI BƏKİROĞLU YAZIR

Səh. 4 YANVARIN 1-DƏN 10-NA KİMİ İSTİRAHƏT GÜNÜ ELAN EDİLİB

Səh. 4 MİLLİ TƏDRİS PLANINDA DƏYİŞİKLİK EDİLİB

Səh. 5 AZƏRBAYCAN - GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ- MÜBARİZ GÖYÜŞLÜ YAZIR

Səh. 6 UNİKAL HƏYAT- ESMİRA ƏLƏKBƏRLİ YAZIR

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

## PARLAMENTƏ YENİ SƏDR SEÇİLİB



Gürcüstan parlamentinin yeni sədri Şalva Papuaşvili seçilib. Qanunverici orqanın növbədənkənar iclasında 88 deputat onun namizədliyini dəstəkləyib, 1-i əleyhinə səs verib.

Ş.Papuaşvili X çağırış parlamentinin sayca üçüncü spikeri olub. O, 2020-ci ilin oktyabrında parlament seçkilərində hakim Gürcü Arzusu Partiyasının siyahısı üzrə deputat seçilib. 45 yaşlı siyasətçi bu ilin martından Təhsil və elm komitəsinə rəhbərlik edib.

Xatırladaq ki, sabiq sədr Kaxa Kuçava dekabrın 24-də vəzifəsindən istefa verib. Bu barədə hakim Gürcü Arzusu Partiyasının sədri İrakli Kobaxidze keçirdiyi brifinqdə bildirib.

O, K.Kuçavanın istefa səbəbini açıqlamayıb və onun qərarının hakim komandada məyusluq yaratdığını vurğulayıb.

Parlamentin Prosedur məsələlər üzrə komitəsinin sədr müavini Quram Maçaraşvili jurnalistlərə açıqlamasında K.Kuçavanın deputat mandatından da imtina etdiyini bildirib.

O, K.Kuçavanın parlamenti tərk etməsinə baxmayaraq, hakim komandada qalacağını qeyd edib.

Sabiq spiker öz növbəsində fəaliyyətini hakim Gürcü Arzusu Partiyasının Siyasi Şurasında davam etdirəcəyini deyib.

Qeyd edək ki, K.Kuçava bu ilin aprelin 27-də parlament sədri seçilmişdi.

## HÖKUMƏTİN MƏHDUDİYYƏTLƏR TƏTBİQ ETMƏKLƏ BAĞLI SƏLAHİYYƏT MÜDDƏTİ UZADILIB




Gürcüstan hökumətinin pandemiya dövründə fövqəladə vəziyyət elan etmədən məhdudiyyətlər tətbiq etməklə bağlı səlahiyyət müddəti 2023-cü ilin yanvarın 1-dək uzadılıb.

Ölkə parlamentinin dekabrın 22-də keçirilən iclasında “İctimai sağlamlıq” haqqında qanuna bununla bağlı müvafiq düzəlişlər qəbul olunub.

Qanun layihəsi 77 səslə dəstəklənib, 4 deputat əleyhinə səs verib.

Sənədə əsasən, müddətin artırılmasının məqsədi hökumətin pandemiyanın yayılmasının qarşısını alması və proseslərin idarə olunması üçün mövcud hüquqi mexanizmin saxlanılmasıdır.

Qeyd edək ki, hökumətin qüvvədə olan səlahiyyət müddəti 2022-ci ilin yanvarın 1-də başa çatacaq.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 13 MİNİ KEÇİB




Dekabrın 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 13 800 nəfər təşkil edib. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 934 741 nəfər, sağalanların sayı isə 895 315 nəfər olaraq göstərilib.

Dekabrın 31-nə kimi ölkədə ümumi olaraq 2 512 858 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 57 nəfər, stasionar nəzarətdə 4 551 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 858 nəfə olaraq göstərilib.

Qeyd edək ki, Gürcüstanda COVID-19-un təhlükəli mutasiyası olan “omikron” ştamına ilk yoluxma halı dekabrın 20-də təsdiqlənib.

## PEYVƏND OLUNAN 50 YAŞDAN YUXARI ŞƏXSLƏR 200 LARİ ALACAQLAR

Gürcüstan hökuməti koronavirus əleyhinə vaksinasiya üçün həvəsləndirmə proqramının müddətini uzadıb və əhatə dairəsini genişləndirib. Bu barədə qərar ölkənin Dövlət Qurumlararası Koordinasiya Şurasının iclasında qəbul olunub.

Qərara əsasən, peyvənd vurduranlar 200 lari məbləğində pulu yanvar ayında da ala biləcəklər və yaş həddi 60-dan 50-yə endiriləcək.



# Asi

İBRAHİMXƏLİL

Ərəb əsilli "asi" sözü etiraz edən, qarşı çıxan, qiyamçı, üsyançı anlamlarını verir. Az-az arazbarı xəbəriniz olsa da, sadəcə olaraq xatırladıram ki, bircə şeyi də biləsiniz: söhbət nə Türkiyə istehsalı olan və Tuba Büyüküstün ilə Murat Yıldırımın baş rollarda çəkildikləri "Asi", nə də ABŞ yazıçısı C.Selincerin həyatını mövzuya çevirmiş "Çovdar tarlasındakı Asi" filmlərindən getmir.

Söhbət bizim "yerli" Asidən gedir. O Asi ki, özünün fikrincə, asiliyi, etirazları nə siyasi, nə də sosial etirazdır; heç ipə-sapa yatmamağı, etirazları sadəcə olaraq mədəni etirazdır! Əsas etibarı ilə də Ceyran mövzusunda yazılmış bütün şeirlərə qarşı!

Babası ona belə vəsiyyət edibmiş: asi ol, qarşı çıx, bəyənmə, etiraz elə, baş qaldır – onda səni görəcəklər, onda məşhur olacaqsan!

Bir müddət Avropada – Danimarkanın paytaxtı Kopenhagendə yaşayan Asi hətta "ən məşhur danimarkalı" sayılan, uşaqların xoşbəxtliyinin sirrini bilən yazıçı H.X.Andersenə də dil uzatmışdı; statusunda yazmışdı ki, Andersenin "Kralın təzə paltarı" hekayəsini elə babam Qotur Alı (ayaması belə olub) da yazardı! Nə vardı ki!

Oralardan özünü Gürcüstan üzrə mütəxəssis kimi aparan Asinin buralarda rahat buraxmadığı adammı qaldı? Babasının vəsiyyəti sanki başına koralanmışdı: aşağıla, bəyənmə, tərsini söylə! Amma məni yandırıb-tökən onun ceyranlı hətərən-pətərənləri idi!

İnsanın cəmiyyətdəki statusunu-yerini internetdə yazdığı statusla qarışıq-dəyişik salmışdı. Hesab edirdi ki, həm cəmiyyətdəki, həm də internetdəki statusuna heç söz ola bilməz! Tutduğu pillə yüksək pillə imiş, sosial rolu da Lider rolu imiş! Yazdığı statuslara gəlincə, sanki M.Veberin qələmindən çıxıbmış! M.Veber demiş, asiliyin-etirazçılığın psixologiyası – öyrənilmək baxımından – hələ bizim eradan əvvəl Esxilin "Zəncirlənmiş Prometey" əsərində manşırlanmışdır. Sonralar Z. Freyd, A.Kamyu, E.Froydenberq, K.Levin, yuxarıda dediyim kimi, M.Veber və onlarla başqaları bu mövzuya yeni məzmun vermişlər.

...Amma, canım-gözüm, məni sözümün canından niyə uzaqlaşdırırsan, sən niyə ceyranla göz yağı yemisən axı? Məsələn, Azərbaycan miniatür sənət əsərlərindəki ceyran rəsmlərinə heç baxmadınmı? Xalqın mədəniyyətində, incəsənətində ceyranın rolunu duya bilmədinmi heç? Özünü marka sayırsan – dinmirik, trend, star sayırsan görməməzliyə vururuq.

...Asiyə görə, Aşıq Ələsgərin, Səməd Vurunun "Ceyran" şeirləri makulatura imiş. Daha da uzağa gedərək Baba Mirzəyevin

***Bir yaylığım vardı gülü özündən...***
***...asta yeri kəmər düşər belindən*** –

misralarına karikatura çəkib (ya da çəkdirib) "Şınqıroy" qəzetində dərc etdirmişdi.

Aşıq Veysəlin:

*Sən bir ceyran olsan, mən də bir ovçu,*
*Ovlasam çöllərdə saz ilə səni.*
*Tapılmaz dərmanı, yoxdu əlacı,*
*Vursam, yaralasam söz ilə səni...* – bəndini qiymə-qiymə doğramışdı. Baxmayaraq ki, ona çox vurğulamışdılar ki, bilməmiş olmazsan – ceyran zərif heyvandır, az qala müqəddəsdir, bu ayrı; axı təşbehlərdə-bənzətmələrdə, arada-sırada metaforalarda-istiarələrdə ceyran həm də **gözələ** işarədir! Gözündən-qaşından tutmuş bədəninin tənasübünə qədər, zahiri-batini qüsursuz olan **gözələ**!

Kimə deyirsən?

Yeri gəlmişkən, "Zəncirlənmiş Prometey"dən söz düşəndə Asi deyirdi ki, əsl zəncirlənmiş mənəm. Azadlığın yollarını arayıram.

Əlbəttə ki, müxalif fikrə, etiraza, azad sözə, hətta asiliyə də yer var. Bunlarsız həyatmı olar? Amma ceyranla nə işin, ay zalım? Bəlkə bu – psixologiyanın da iddia etdiyi – bəzi asiliklərin statusu aşağı olan qruplarla rabitəli olduğu fikri ilə bağlıdır? Bir zamanlar taun qiyamları olub, malyariya etirazları məlumdur, indi də Covid – 19... Axı "etiraz xəstələri"nin hamısı aşağı qruplara aid ola bilməz!

Müxtəsəri, asilik və xarakteristikası illərlə araşdırılası, dərs çıxarılası mövzudur. Allahın altı da həmişə böyükdür və təbii ki, bu Altın bir bucağında asiliyə, Asiyə də bir guşəcik tapılar.

Amma məgər bizim Asi bilmirdimi ki, ceyran dalınca qaçan çəmənliyə gəlib çıxır, donuz dalınca qaçan da çamırlığa?

Həyatda nə qədər paradoks var imiş... Kopenhagendən "erkən evlilik"lə bağlı o qədər statuslar üyüdüb-tökdü ki, evlənmək vaxtı da keçdi. Atasımı çağırdı – bilmirəm, anasımı yalvardı – bilmirəm. Bacısımı, dostu-tanışımı, bu da məlum deyil. Amma Asi günlərin bir günü Kopenhagen – Tiflis reysi ilə uçub gəldi.

Üççə gün keçmədi ki, bir söz yayıldı: bəs deməzsənmi, **Asi aşiq olub**! Özü də necə aşiq! Kopenhagenin yuxusuna da girməz! Öldü var, döndü yoxdur! Şair də necə buyurmuşdu:

*Bir dönüb baxmaqla canımı aldın,*
*Məni Məcnun edib çöllərə saldın...*

Amma... qızın adı da ***Ceyran*** imiş! İki ayağını bir başmağa dirəyir ki, getdi yoxdur, vəssalam! Könül məsələsi deyilmi?

Nə isə... məsələnin həlli üzümüzə gələn ilə qalır. Bir yenilik olsa, mütləq sizə yazaram.

P.S.

Asinin Avropası, Kopenhageni ilə arazbarı uyuşan bir ispan məsəli də var. Deyim: "Don Kixot olmaq üçün yola çıxan bir çox insan evə Sanço Pansa olaraq dönür".

Bir də bir kitabdan yadımda bir parçacıq qalıb, paylaşıram: *oralarda, o uzaqlarda hər səhər bir ceyran oyanır...* Çox xoşuma gələn bir yarımçıq cümlədir.

Bir tamamlayan tapılar, inşallah!..

## GÜRCÜSTANDA DÖVLƏT MÜFƏTTİŞLİYİ LƏĞV OLUNUR




Gürcüstan parlamentində Dövlət Müfəttişliyi Xidmətinin ləğvini nəzərdə tutan qanun layihəsinə tezləşdirilmiş qaydada baxılmasına başlanılıb.

Sənədə əsasən, Xidmət ləğv ediləcək və bazasında iki qurum – Xüsusi İstintaq Xidməti və Şəxsi Məlumatların Mühafizəsi Xidməti yaradılacaq.

Hakim Gürcü Arzusu Partiyasının təşəbbüskarı olduğu layihə Prezident Salome Zurabişvilinin və parlamentdə təmsil olunan müxalifətin kəskin mənfi reaksiyası ilə qarşılanıb. Dövlət başçısı hesab edir ki, rəhbərinin analıq məzuniyyətində olduğu Xidmətin ləğvi yolverilməzdir. O, qanun layihəsinə baxılmasının dayandırılmasını təklif edib.

Dövlət müfəttişi Londa Toloraia "Gürcü Arzusu"nun təşəbbüsünün onun üçün gözlənilməz olduğunu və bu barədə mətbuatdan öyrəndiyini bildirib. O, qanunverici orqanı qanunun qəbulu prosesini dayandırmağa çağırıb.

"Gürcü Arzusu"ndan isə bildirilib ki, təşəbbüs Dövlət Müfəttişliyi Xidmətinin ləğvini nəzərdə tutmur, söhbət qurumun yenidən formalaşdırılması və səlahiyyətlərinin genişləndirilməsindən gedir.

Qeyd edək ki, Gürcüstanda Dövlət Müfəttişliyi Xidmətinin yaradılması barədə qanun 2018-ci ildə qəbul olunub. Müstəqil dövlət institutunun əsas fəaliyyət istiqaməti şəxsi məlumatların mühafizəsi və müəyyən vəzifə cinayətlərinin araşdırılmasından ibarətdir.

## PARLAMENT ONLAYN QUMARLA BAĞLI QAYDALARIN SƏRTLƏŞDİRİLMƏSİNİ DƏSTƏKLƏYİB



Gürcüstan parlamenti onlayn kazinoları tənzimləyən qaydaların sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsini üçüncü oxunuşda qəbul edib.

Sənədi 82 deputat dəstəkləyib, 1-i isə əleyhinə səs verib.

Qanuna əsasən, gələn ilin yanvarın 1-dən etibarən oyun biznesi sektorunda fəaliyyət göstərən şirkətlər üçün vergi 65-70 % artırılacaq.

Martın 1-dən etibarən isə yaşı 25-dən az olan şəxslərə qumar oyunlarında iştirak qadağan ediləcək. Qadağa dövlət qulluqçuları, sosial müavinətlər alan, məhkəmə qərarı və ya ailənin tələbi əsasında "qara siyahı"ya salınmış şəxslərə də şamil olunacaq. Azart oyunlarına əlçatanlıq ümumilikdə yetkinlik yaşında olan 1 milyon nəfər vətəndaş üçün məhdudlaşdırılacaq.

Martın 1-dən həmçinin qumar oyunlarının televiziya və çöl reklamları, həmçinin Gürcüstanın internet saytlarında bu mövzuda reklam yerləşdirilməsinə qadağa tətbiq olunacaq.

Qeyd edək ki, ölkədə növbəti mərhələlərdə onlayn kazinoların tam qadağan edilməsi planlaşdırılır.

## BUSTER DOZANIN VURULMASI MÜDDƏTİ ÜÇ AYA ENDİRİLİB




Gürcüstanın İmmunlaşdırma Şurasının qəbul etdiyi qərara əsasən, koronavirusa qarşı buster dozanın vurulması üçün tələb olunan müddət 6 aydan 3 aya endirilib.

Qərarla üçüncü doza kimi istənilən peyvənddən istifadə tövsiyə olunub.

Qeyd edək ki, Gürcüstanda 18 yaşdan yuxarı şəxslər buster doza qəbul edə bilir.

## İRAKLİ QARİBAŞVİLİ: "TÜRKİYƏ İLƏ ÇOX YAXIN, DOST VƏ QARDAŞ MÜNASİBƏTLƏRİMİZ VAR"



"Şübhəsiz ki, Türkiyə bölgədə çox vacib oyunçudur. Türkiyə ilə çox yaxın, dost və qardaş münasibətlərimiz var". Bunu Baş nazir İrakli Qaribaşvili "İmedi" telekanalının efirində yayımlanan "Üz-üzə" proqramında deyib.

Türkiyəni Gürcüstanın strateji tərəfdaşı adlandıran İ.Qaribaşvili bu ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla münasibətlərindən də danışıb: "Bizim həm birbaşa, həm də telefonla çoxlu görüşlərimiz və söhbətlərimiz olub. Münasibətlərimiz səmimidir".

Baş nazir qeyd edib ki, Gürcüstan-Türkiyə münasibətləri qorunub saxlanılmalı, möhkəmləndirilməli və dərinləşdirilməlidir: "Mən bu istiqamətdə əlimdən gələn hər şeyi edirəm və şadam ki, Türkiyə prezidenti də eyni əhvaldadır".

Hökumət başçısı deyib ki, regionda vasitəçilik olmadan ticari-iqtisadi münasibətləri inkişaf etdirmək, energetika layihələrini reallaşdırmaq mümkün deyil.

"Bu istiqamətdə bizim çoxlu ambisiyalı planlarımız var. Hesab edirəm ki, bu gün bu münasibətləri möhkəmləndirmək üçün çox yaxşı şans mövcuddur", - deyə İ.Qaribaşvili bildirib.

## TÜRKİYƏ SƏFİRİ: QARABAĞA MÜTLƏQ SƏFƏR EDƏCƏYƏM



Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Tbilisidə keçirilən qış xeyriyyə yarmarkasında Azərbaycan guşəsinə baş çəkərək Xarıbülbül formasında döş nişanı və kəlağayı alıb.

Səfir jurnalistlərə açıqlamasında deyib ki, Azərbaycan stendi xeyriyyə tədbirinin ən zəngin guşələrindən biridir: "Türkiyə və can Azərbaycanın guşələrinin yanbayan olmasından qürur duydum".

F.C.Yazqan qarşıdan gələn Yeni il münasibətilə Azərbaycana təbriklərini çatdırıb: "Qardaş Azərbaycan xalqına ilk növbədə cansağlığı, bərəkət, bolluq və sevdiklərinin gözəl günlərini görə biləcəkləri il arzulayıram. Bütün bölgədə barış və sabitliyin hakim olmasını, Azərbaycanın halal torpaqları üzərində rifahı yüksəldəcəyi il diləyirəm".

Xanım səfir Qarabağa səfər etmək arzusunda olduğunu da qeyd edib: "Səfərin baş tutmasını çox arzulayıram. Səfir kimi olmasa da, Fatma Ceren Yazqan kimi Qarabağa mütləq səfər edəcəyəm".

*Mənbə: report.az*

## İQTİSADİYYAT NAZİRİ: BU LAYİHƏ GÜRCÜSTAN VƏ AVROPANIN ENERJİ SİSTEMLƏRİNİ ƏLAQƏLƏNDİRƏCƏK



"Qara dənizdə yüksəkgərginlikli sualtı elektrik xətti layihəsi Gürcüstan və Avropanın enerji sistemlərini bir-biri ilə əlaqələndirəcək. Potensial baxımından bu layihə Bakı-Tbilisi-Ceyhan layihəsindən heç də az əhəmiyyətli deyil". Bunu Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava parlamentdə "nazir saatı" formatında çıxışı zamanı deyib.

Nazir layihənin reallaşdırılması ilə tamamilə yeni reallığın yaranacağını vurğulayıb.

"Bizim enerji bazarımız Avropa bazarı ilə yalnız fiziki deyil, hüquqi baxımdan da bağlı olacaq. Layihədə 1200 kilometr uzunluqda və 1000 meqavatt gücə malik kabelin çəkilməsi nəzərdə tutulub. Bu, Cənubi Qafqaz və Avropaya geniş ixrac imkanlarından istifadəyə və elektrik enerjisini saatlıq bölmələrə görə bazar qiymətinə idxal etməyə imkan verəcək", - deyə N.Turnava bildirib.



## KEÇMİŞLƏ GƏLƏCƏK ARASINDAKI KÖRPÜDƏ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Yaxşısı ilə, pisi ilə, sevinci ilə, kədəri ilə bir ili də geridə qoyub addımımızı atırıq yeni bir təqvim ilinə. Bəlkə yeni gələcək olan il də elə yola saldığımız il kimi olacaq, bəlkə daha yaxşı, bəlkə də daha pis. Onu gələcək göstərəcək. Görəsən bilmədiyimiz bir gələcək üçün niyə bu qədər sevinc içində oluruq. Bir il daha yaşlandığımız üçünmü, ölümə bir addım daha yaxın olduğumuz üçünmü, yoxsa daha yaxşı olacağına inandığımız üçünmü?

Keçən son bir neçə əziyyətli illəri qarşılayanda da, yaxşı yadımdadır ki, bugünkü kimi sevincli idik. Ancaq bu gün o cür illərin bir daha gəlməməsi diləyindəyik. Unutmayaq ki, biz bu dünyada imtahan olunmaq üçün var olmuşuq. İmtahanımızın əsas keçid balı isə Allaha olan qulluğumuz, ona qarşı səmimiyyətimiz və inancımızın dərəcəsinə bağlıdır. Ancaq bizlər bunun əksinə olaraq bu varolma məqsədimizi unudub əbədi yaşayacaqmış kimi ömürdən gedən illərə sevinirik. Bu illəri yola saldıqda atdığımız fişəngi atəşləyərkən yola verdiyimiz illə bağlı qısaca bir hesabat etdikmi? Nə qazanıb, nə itirdiyimizi xatırladıqmı, bunlardan bir dərs çıxardıqmı? Yoxsa dünyadakı zövq və əyləncəmizi əlimizdən alıb bizi karantin müddətində evə məhkum etdiyi üçün bir daha dönüşü olmaması üçünmü dua etdik. Bunun üçünmü əyləncə tərtib edib fit çaldıq? Unutmayaq ki, başımıza gələnlərin hamısı etdiklərimizin cəzası olaraq bizə vurulan bir sillə mahiyyətində ola bilər.

Deyəcəksiniz bu da köhnə bazara yeni adət gətirmək istəyir. Bu məni heç də narahat etmir, kim nə istəyir düşünə bilər. Ümidvaram ki, mən hərkəsin fikrinə hörmətlə yanaşdığım kimi mənim də düşüncələrimə hörmət göstərənlər tapılacaq. Ancaq bir şeyi nəzərdə saxlayaq ki, yaşadığımız toplum müsəlman toplumudur. Əgər bu günləri bayram hesab ediriksə, bəs öz dini bayramlarımızı niyə bayram əhval-ruhiyyəsində qeyd etmirik? Niyə quruca plov dəmləyib, ət bişirib ondan da bir dadımlıq yemədən işə tələsirik? Niyə yeni il şənliyi kimi süfrə bəzəyərək evimizdə bayram ab-havası yaratmırıq? Axı biz öz bayramımızı layiqincə qeyd etməsək kim gəlib bunu bizim gələcək nəsillərimizə təbliğ edəcək? Biz öz dinimizə sahib çıxmasaq kimsə bizə hörmətlə yanaşmaz. Çünki öz müqəddəsinə sahib çıxmayandan kimsəyə fayda olmaz. Bunu bizim qarşı tərəf yaxşı anlayır və bizim kimliyimizi, inancımızı, mədəniyyətimizi zədələyərək bizi özümüzdən uzaqlaşdırır. Biz də bunu mədəniyyət olaraq qəbul etməyə çalışırıq. Unutmuşuq ki, dünyaya mədəniyyəti İslam dini, türk milləti öyrədib. Unuduruq ki, fitr sədəqəsi kimi yardımlaşma ilə əsl sevinci bəxş edən mədəniyyət elə bizim Ramazan bayramıdır. Unuduruq ki, kəsilən qurban ətlərini paylaşaraq imkanı olmayanların da bayram etməsini ön görən Qurban bayramıyla əsl mədəniyyət elə bizim özümüzdədir. Unutmuşuq ki, təbəssümü belə sədəqə sayaraq insanların daim gülərüzlü olmasını təbliğ edən gözəllik bizim dinimizdir. Bu siyahını yüzlərlə sadalamaq olar. Əzizlərim, gəlin öncə özümüzə məxsus olan bayramlarımızı dərk edərək layiqincə qeyd edək, daha sonra özgə mədəniyyətlərini mənimsəyərik.

Yaxşı, təqvim ilini qarşılayırsınızsa qarşılayın. Ancaq bir daha deyirəm, papağınızı qoyun qabağınıza bir hesabat verin özünüzə, görün bu ili yola salarkən nəyi itirib, nəyi qazanmısınız. Xeyirdəsinizmi, yoxsa zərərdəmi.

Xoş gələcək arzusuyla...

# YANVARIN 1-DƏN 10-NA KİMİ İSTİRAHƏT GÜNÜ ELAN EDİLİB




Yanvarın 1-dən 10-a kimi dövlət müəssisələrində istirahət günü elan edilib. Bu qərarı Dövlət Qurumlararası Koordinasiya Şurası insanların cəm halında toplaşmasının qarşısının alınması məqsədi ilə qəbul edib. Şura eyni tövsiyə ilə özəl müəssisələrə də müraciət edib.

Baş nazir İrakli Qaribaşvilinin rəhbərliyi ilə keçirilmiş iclasda **dekabrın 29-dan yanvarın 17-nə kimi məktəblərdə tətil elan edildiyi bildirilib.**

Həmçinin Gürcüstanda olan epidemioloji vəziyyət də müzakirə olunub. Məlum olduğu kimi, dekabrın 20-si ölkədə koronavirusun “omikron” ştamı qeydə alınıb. Bununla bağlı Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze şura üzvlərinə məlumat verib. Koordinasiya şurası “omirkon”un yayılmasına görə yaranmış yeni vəziyyəti nəzərə alaraq indiki mərhələdə əlavə yüngülləşdirmə tədbirləri, həmçinin gecə klublarının açılması barədə qərar qəbul etməyi mühüm hesab etməyib.

Şura vətəndaşlara müraciət edərək bildirib ki, maska taxsınlar, məsafə saxlasınlar və peyvənd prosesində fəal iştirak etsinlər ki, ölkədə ciddi məhdudiyyətlərin tətbiqi üçün şərait yaranmasın.

Baş nazir İrakli Qaribaşvilinin tapşırığı ilə ölkədə qüvvədə olan tənzimləmələrin icrasına müvafiq qurumlar tərəfindən ciddi nəzarət olunur.

# MİLLİ TƏDRİS PLANINDA DƏYİŞİKLİK EDİLİB



“Milli tədris planının təsdiqlənməsi barədə” Gürcüstanın təhsil və elm nazirinin 2016-cı il 18 may N40/n sərəncamında dəyişiklik edilib. Mixeil Çxenkelinin sərəncamına əsasən, dəyişiklik fənn qrupunun birləşdirilməsinə aiddir. Nazir 17 dekabrda sərəncamı imzalayıb və sərəncam 20 dekabrda yayımlanıb.

**İctimai elmlərin fənn qrupunda sonrakı vacib fənlər birləşib:**

a) Mən və cəmiyyət (III-IV siniflərdə tədris olunur);

b) Bizim Gürcüstan (V-VI siniflərdə tədris olunur);

c) Tarix (Gürcüstan və dünya tarixini əhatə edir və VII-XII siniflərdə tədris olunur);

ç) Coğrafiya (Gürcüstan və dünya coğrafiyasını əhatə edir və VII-XII siniflərdə tədris olunur);

d) Vətəndaş təhsili (“Vətəndaşlıq” fənnini əhatə edir - VII-XII siniflər və vacib layihələrlə - X-XII siniflərdə tədris olunur).

**Təbiətşünaslıq elmlərinin fənn qrupunda növbəti vacib fənlər birləşib:**

a) Təbiətşünaslıq (I-VI siniflərdə tədris olunur);

b) Biologiya (VII-XII siniflərdə tədris olunur);

c) Fizika (VII-XII siniflərdə tədris olunur);

ç) Kimya (VIII-XII siniflərdə tədris olunur).

**Estetik tərbiyə fənn qrupunda sonrakı vacib fənlər birləşib:**

a) Təsviri və tətbiqi incəsənət (Təsviri və tətbiqi incəsənət I-IX siniflərdə vacib fənni əhatə edir və vacib layihələrlə X və ya XI siniflərdə tədris olunur);

b) Musiqi (I-IX siniflərdə vacib fənni əhatə edir və vacib layihələrlə X və ya XI siniflərdə tədris olunur).

Bildirilir ki, bu sərəncamın birinci maddəsi 2022-ci ilin 1 sentyabrından qüvvəyə minsin.

# MÜƏLLİMLƏR EVİ: STATUSU YÜKSƏLTMƏK MƏCBURİ DEYİL




Baş müəllim və aparıcı müəllimlərin statuslarını yüksəltmələri üçün 2022-ci ilin yayında imtahan olacaq. Bu barədə Təhsil Nazirliyi məlumat yayıb. Ancaq qeyd etmək lazımdır ki, təcrübəçi müəllimlərdən fərqli olaraq məktəbdə qalmaq üçün bu imtahanı vermək və statusu yüksəltmək müəllimlər üçün məcburi deyil.

Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzdən bildiriblər ki, statusu yüksəltmək pedaqoqun öz istəyindən asılıdır.

*“Gürcüstanın Təhsil və Elm Nazirliyi kvalifikasiyasını yüksəltmək istəyən baş və aparıcı müəllimlərə yeniliklər təklif edir və onlara karyeralarında inkişaf etmək imkanı verir. Qeyd edək ki, statusu yüksəltmək pedaqoqlar üçün məcburi deyil və yalnız müəllimlərin peşə inkişafına dəstək olmağa xidmət göstərir, bu isə, birbaşa onların əməkhaqqına təsir göstərəcək”,* - Müəllimlər Evinin məlumatında qeyd olunub.

# BAŞ VƏ APARICI MÜƏLLİMLƏR İMTAHANI YAYDA KEÇİRİLƏCƏK

Gürcüstanın Təhsil və Elm Nazirliyi ixtisasını artırmaq istəyən baş və aparıcı müəllimlərə yenilik təklif edir və onlara karyeralarında inkişaf imkanı yaradır. Qeyd etmək lazımdır ki, statusu yüksəltmək pedaqoqlar üçün məcburi deyil və yalnız müəllimlərin peşə inkişafına dəstək olmağa xidmət göstərir. Bu isə birbaşa onların əməkhaqlarına təsir göstərəcək.

2022-ci ilin yayında statusu yüksəltmək istəyən pedaqoqlar üçün fənn və peşə bacarıqları imtahanı keçiriləcək. Qeyd etmək lazımdır ki, baş müəllim statusu qazanmaq üçün ixtisası təsdiqləmə imtahanında 50 % manеəni aşmış, yaxud akademik doktorluq dərəcəsi əsasında status qazanmış pedaqoqlara peşə bacarıqları imtahanında iştirak etmək imkanı veriləcək.

İxtisası təsdiqləmə imtahanında 50 %-lik maneəni aşmamış müəllimlər isə statusu yüksəltmək üçün peşə bacarıqları imtahanında iştirak etməyə görə fənn imtahanında 60 % + 1 maneəni aşmalı olacaqlar.

Karyera inkişafı üçün fənn və peşə bacarıqları imtahanını uğurla verdikdən sonra müəllimlər praktiki kompetensiyadan da qiymətləndirilməlidirlər. Bu, pedaqoqun portfolyosunun araşdırılmasını və məktəbdə müəllimlik fəaliyyətinin qiymətləndirilməsini, həmçinin müsahibə, dərs prosesinin müşahidə edilməsini və s. nəzərdə tutur.

Əgər karyerasını inkişaf etdirmək istəyən pedaqoq fənn və peşə bacarıqları imtahanını uğurla veribsə, ancaq praktiki kompetensiyadan keçə bilməyibsə, onun imtahanda qazandığı bal qalır və praktiki kompetensiyanı təsdiqləmək imkanı yenidən verilir.

Müəllim statusunu yüksəltmək üçün imtahanın verilməsini Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi təmin edir. Qeyd edək ki, mərkəz 2022-ci ildə aparıcı və mentor müəllim olmaq istəyənlərin peşə bacarıqları imtahanını ilk dəfə keçirəcək. Müəllimin peşə standartına uyğun olaraq artıq imtahan proqramları hazırlanıb və Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin veb-səhifəsinə yerləşdirilib.

Testlə əlaqədar ətraflı məlumat mərkəzin veb-səhifəsində mərhələli şəkildə yerləşdiriləcək.

Qeyd edək ki, ixtisasını artırmaq istəyən pedaqoqlara imtahanı uğurla vermək də kömək edəcək bütün resurslar Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin dəstəyi ilə əlçatandır.

# PENSİYA MÜKAFATI İLƏ MƏKTƏBİ TƏRK EDƏN MÜƏLLİMLƏR İNDİ BAŞ MÜƏLLİM STATUSU QAZANACAQDILAR

Müəllimlərin karyerada irəliləyişi və peşə inkişafı sxemində dəyişiklik edilir. Bilirik ki, təcrübəçi müəllimləri məktəbdən azad etməyəcəklər və onlara aşağıdakı şərtlərlə baş müəllim statusu veriləcək:

- **Fənn, yaxud peşə bacarıqları imtahanından ən azı 1 krediti varsa;**
- **Fənn imtahanından 10 kredit qazanıbsa.**

Nazirin bu qərarı təcrübəçi müəllimləri çox sevindirdi. Ancaq baş müəllim statusu olan müəllimlərin əksəriyyəti ixtisası təsdiqləyə bilməyən müəllimlərlə eyni səviyyədə olmalarına etiraz etdilər.

**Bəs nazirin bu qərarından kimlər daha çox zərər çəkdi?**

Xatırladığımız ilk zərərçəkənlər pensiya mükafatı ilə məktəbdən gedən müəllimlərdir. İki il əvvəl Təhsil və Elm Nazirliyi pensioner müəllimlərə seçim təklif etdi – ya imtahanı versinlər və status qazanmaq üçün bütün vacib fəallıqları yerinə yetirsinlər, ya da pul mükafatını alaraq məktəbdən getsinlər. O zaman müəllimlik peşəsindən 8870 müəllim getdi.

Qeyd olunduğu kimi, islahatın məqsədi məktəblərdə özünə inamlı gənclərin işlə təmin edilməsi və eyni zamanda pensioner təcrübəçi müəllimlərin layiqli şəkildə yola salınması idi. Tam iki il sonra isə müəyyən oldu ki, nazirlik 9000-ə yaxın pedaqoqa yalan təklif edərək onları peşəsindən azad edib, iki ildən sonra minimum 1 kredit toplayanlara status hədiyyə edir.

Bu ədalətsizliklə bağlı müəllimlər “etaloni.ge”yə də danışıblar:

*“İki il əvvəl verilən qərar hansı məqsədə xidmət göstərirdi? Bunu bugünkü baxışdan başa düşmək çətindir. Məktəbdən mükafat qarşılığında gedən pedaqoqların əksəriyyəti heç də xoşbəxt deyildi. Onlara sadəcə başqa yol qoymadılar, çünki şagirdləri düşünmək əvəzinə, süni fəallıqlara qoşulmuşdular. Bu, həqiqətən asan deyildi. Müəyyən olmayan tələblər əksəriyyətimizi yordu və məhz buna görə bu qərarı qəbul etdik. Uşaqlardan ayrılmaq iki ilin maaşına həqiqətən də dəymirdi”.*

*“Bu gün baş müəllimlər özlərini təhqir edilmiş hiss edirlər ki, təcrübəçiləri necə bizimlə bərabər tuturlar. Real olaraq zərərçəkənlər məhz pensiya mükafatı ilə gedən müəllimlərdir. Onlar arasında əksəriyyəti yəqin ki, “1 kreditli” idi və məktəbdə qalsaydılar indi onlar da status qazanacaqdılar”.*

*Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi:* ***Aynurə ƏLİYEVA***

# AZƏRBAYCAN - GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ



Cənubi Qafqazın aparıcı dövlətlərindən olan 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası siyasi, iqtisadi, hərbi, sosial, təhsil, elm və s. sahələrdə yeni-yeni uğurlara imza atmaqdadır. Daxili siyasətdə multikulturalizm, tolerantlıq, vətəndaş həmrəyliyi, milli birlik məsələlərini ön planda tutan Azərbaycan xarici siyasətdə beynəlxalq hüquq norma və prinsiplərini, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsini əsas tutur. Xüsusən Cənubi Qafqaz siyasətində Azərbaycan Gürcüstanla strateji tərəfdaşlıq, mehriban qonşuluq siyasəti aparır. Azərbaycan, o cümlədən Türkiyə Gürcüstanın iqtisadiyyatına, inkişafına ən çox yatırım qoyan, dəstək olan ölkələrdəndir.

30 ilə yaxın torpaqlarımızı işğal altında saxlamış, ciddi maddi-mənəvi zərbələr vurmuş Ermənistan normal qonşuluq münasibətləri saxlamaq istəyəcəksə Azərbaycan onunla da sülh şəraitində yaşamağı əsas götürmək fikrindədir. Azərbaycanla Gürcüstan arasında indiyə qədər son dərəcədə gərgin, həll oluna bilməyəcək bir hadisənin yaşandığını söyləyə bilmərik. Çünki hər iki dövlət münasibətlərini, hətta yaranan hansısa problemlərini də sivil qaydada tənzimləyir, digər dövlətin ərazi bütövlüyünə, beynəlxalq hüquqa hörmətlə yanaşır. Hər iki dövlətin ərazisi işğal altında idi, hər iki dövlət təcavüzə uğramışdı. Azərbaycan xarici güclərin dəstək verdiyi Ermənistanın təcavüzü, Gürcüstan isə Rusiyanın aqressiyası ilə qarşı-qarşıya idi. Hər bir dövlətin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı onun üçün milli təhlükəsizlik məsələsidir. Məhz buna görə də işğalla barışmayan Azərbaycan “Dəmir yumruq” planıyla 2020-ci il 27 sentyabrda əks-hücum əməliyyatı başladaraq, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını - Qarabağı Ermənistanın işğalından azad etdi, ərazi bütövlüyü problemini çözdü. Gürcüstanın da qısa bir müddətdə ərazi bütövlüyü probleminin həll olunmasını arzulayır və bunun gerçəkləşəcəyinə inanırıq. Bu problemlərin çözülməsi Cənubi Qafqazı konfliktli bölgələr siyahısından çıxardıb əməkdaşlıq, sülh, mehriban qonşuluq, dinc yanaşı yaşama ərazisinə keçirdə bilər.

Bu gün Azərbaycan Respublikası müstəqil siyasət yürüdür. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 1993-cü ildə ölkənin çətin durumunda hakimiyyətə gələn Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə problemlərin həllinə nail oldu, Azərbaycanı uğurlu inkişaf yoluna çıxarda bildi. Həmin vaxt Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan Respublikası tərəfindən işğal edilməsi, bir milyondan çox qaçqın və məcburi köçkünün mövcudluğu Azərbaycan xalqına ciddi problemlər yaşatdı. Lakin dövlət və xalqın milli birliyi, Heydər Əliyev məktəbinin layiqli davamçısı İlham Əliyevin siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan 44 günlük Vətən müharibəsi ilə tarix yazaraq torpaqlarını işğaldan azad etdi. Azərbaycan ordusu, xalqı, dövləti böyük əzmlə özünün ayrılmaz parçası olan Qarabağı geri qaytarmaqla möhtəşəm Zəfər tarixi yaratdı. Bununla da Azərbaycan xalqı sülhsevər xalq olduğunu, lakin işğalla və təcavüzlə də barışmayacağını sübut etmiş oldu. Bizim heç kimin torpaqlarında gözümüz yoxdur, lakin bizim torpaqları işğal etmək istəyənlərin planlarını da darmadağın etməyi bilirik.

Qafqazı öz evi kimi görən, bu evdə sabitliyə, sülhə, əməkdaşlığa önəm verən Azərbaycan Respublikası Cənubi Qafqazda fəal siyasət yürüdür. Azərbaycan 30 il torpaqlarını işğalda saxlamasına baxmayaraq Ermənistanla sülh müqaviləsi imzalamağa, qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanımağa, nəqliyyat-kommunikasiyaları açmağa, Qarabağdakı 25 min ermənini Azərbaycan vətəndaşı kimi yaşamasına dəstək olmağa, sülh və barış yoluna qədəm qoymağa hazırdır. Rəsmi Bakı Gürcüstanda yaşayan azərbaycanlıların gürcü cəmiyyətinə, Azərbaycanda yaşayan gürcülərin cəmiyyətimizə inteqrasiyasında, inkişafında, hüquq və vəzifələrinin yerinə yetirilməsində aktiv iştirak edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, Bakı-Tbilisi-Qars dəmiryolu bizi bir-birimizə sıx bağlayır. SOCAR-ın Gürcüstan iqtisadiyyatına, inkişafına yatırdığı sərmayə dövlətlərimizin işbirliyinin hansı səviyyədə olduğunun göstəricilərindəndir.

Azərbaycanla oxşar maraqları olan Gürcüstan ilə əməkdaşlıq və tərəfdaşlığın hərtərəfli intensivləşməsi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Gürcüstanla ümumi maraqların mövcudluğu, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılması və Avropanı Asiya ilə birləşdirmək üçün tarixi “İpək Yolu”nun bərpası, eləcə də ümumi təhlükəsizliyə təminat verən birgə transregional layihələrdə iştirak bu münasibətlərin mühümlüyünün göstəricisidir.

Azərbaycan daim Gürcüstanın ərazi bütövlüyünün təmin olunmasında, beynəlxalq hüquqla tanınan sərhədlərinin qorunmasında öz mövqeyini və dəstəyini əsirgəməyib. 2008-ci ildə Gürcüstan Rusiyanın təcavüzünə məruz qalanda da biz qonşuluq borcumuzu, strateji tərəfdaşlıq öhdəliyimizi yerinə yetirdik, dəstəyimizi əsirgəmədik. Gürcüstanın vəfalı dövlət və ictimai xadimlərinin bunu unutmaması, münasibətləri yüksək səviyyədə saxlaması təqdir olunası haldır.

Azərbaycanın Gürcüstanla münasibətlərində elm, təhsil, mədəniyyət kimi sahələrdə görülən işlərin də mühüm əhəmiyyəti var. Bu istiqamətdə çoxsaylı işlərin görülməsi danılmaz faktdır. Lakin nə qədər çalışılsa belə yenə də görüləcək çox iş var, həllini gözləyən çox məsələlər mövcuddur. Elm sahəsində əməkdaşlığı daha da genişləndirmək mümkündür. Azərbaycan elminin inkişafında mühüm rol oynayan Azərbaycan Milli Elmlər Akademiyasının, onun müxtəlif institutlarının, o cümlədən də Mərkəzi Elmi Kitabxananın Gürcüstanın müvafiq qurumları ilə daha da sıx işbirliyini qurmaq iki dövlətin münasibətlərinin inkişafına çox böyük töhfə verə bilər.

Azərbaycan Respublikasının 44 günlük müharibədə əldə etdiyi zəfər bölgənin də, regionun da geosiyasi durumunu dəyişib. Bölgədə maraqları olan dövlətlər və bölgə dövlətləri əməkdaşlıq imkanlarını daha da genişləndirmək üçün çalışmaları sürətləndiriblər. Azərbaycan və Türkiyə liderlərinin təşəbbüsü ilə Cənubi Qafqazda əməkdaşlığa töhfə verəcək 3+3 formatı (Azərbaycan-Gürcüstan-Ermənistan, Türkiyə-İran-Rusiya) ciddi şəkildə müzakirə olunur, addımlar atılır. Əməkdaşlıq imkanları genişlənərsə Qafqazı burada yaşayan xalqların sülh evinə, mehriban qonşular məkanına, hətta “Qafqaz Evi”nə çevirə bilərik.

Azərbaycan yalnız Qafqazda deyil qlobal miqyasda da ikitərəfli və çoxtərəfli əlaqələrdə aktiv siyasət yürüdür, beynəlxalq miqyasda üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir. Azərbaycan BMT çərçivəsində, hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatının vasitəsilə, fəal üzvlük siyasəti yürütdüyü Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və s. qurumların imkanlarıyla regional və beynəlxalq sülhə, əməkdaşlığa ciddi töhfə verir. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Azərbaycan hazırda Türkiyə ilə birgə çox ciddi beynəlxalq və regional uğurlara imza atmaqdadır.

Azərbaycan yalnız öz qonşuları ilə deyil dünyanın bütün dövlətləri ilə də qarşılıqlı hörmət prinsiplərindən çıxış edərək münasibətlərini tənzimləyir. COVID-19 pandemiyası vaxtı Azərbaycan bir sıra ölkələrə dəstəyini əsirgəmədi. Dünyanın hansısa bir yerində təbii fəlakətlər baş verərsə Azərbaycan öz humanitar yardımını əsirgəmir. Münaqişə olan bölgələrdə problemin diplomatik yolla həlli üçün səylərini ortaya qoyur. Təhsil, mədəniyyət, elm, ədəbiyyat və s. kimi mühüm sahələrdə də Azərbaycan çox aktiv çalışmalar aparır. Fəaliyyəti ilə Gürcüstanda da yaxşı tanınan Heydər Əliyev Fondu, onun prezidenti Mehriban Əliyeva nəinki Azərbaycanda, dünyanın bir sıra ölkələrində mədəniyyət abidələrinə və müəssisələrinə, təhsil, elm, səhiyyə, sosial sahədə olan çalışmalara çox böyük dəstək olur.

44 günlük müharibədən sonra Azərbaycanın yaratdığı bir sıra reallıqlar müzakirə mövzusu oldu. Bu reallıqlardan biri də Zəngəzur dəhlizidir. Qədim Azərbaycan torpağı olan Zəngəzurdan keçəcək dəhliz Azərbaycanı Naxçıvanla, Türkiyə ilə birləşdirəcək mühüm nəqliyyat qovşağı olacaq. Zəngəzur dəhlizi eyni zamanda Asiyanı Avropa ilə bağlayan mühüm nəqliyyat yollarından biri olacaq.

Azərbaycanda aparılan davamlı inkişaf strategiyası beynəlxalq təşkilatlar və iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının dərc etdiyi növbəti “Doing Business 2020” hesabatında Azərbaycan dünyanın 20 ən islahatçı dövləti siyahısına daxil edilib.

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması, əhalinin sosial rifahının yüksəldilməsi məqsədilə “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf konsepsiyası və “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”ndə müəyyən olunmuş tədbirlər uğurla icra olunur. Azərbaycanda “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsi yaradılıb. “Ağıllı şəhər” (Smart City) və “ağıllı kənd” (Smart Village) konsepsiyası hazırlanır. İşğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələri də Dördüncü Sənaye İnqilabının əsas trendlərindən olan “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları əsasında bərpa olunacaq. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” artıq təsdiq edilmişdir.

Həyata keçirilən sosial-iqtisadi siyasət bütövlükdə insan kapitalının inkişafına, ölkədə yoxsulluğun azaldılmasına və işsizliyin minimuma endirilməsinə, sosial infrastrukturun inkişafına, nəticə etibarı ilə əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə xidmət edir.

Bütün bu çalışmalar Azərbaycan Respublikasının inkişafında, onun regional və beynəlxalq miqyasda rolunun artmasında ciddi rol oynayır. Torpaqlarını işğaldan azad etmiş Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyində daha böyük nəticələr əldə etmək üçün əzmlə çalışır. Bizlər bu çalışmaların 2022-ci ildə və sonrakı dövrlərdə real nəticələrini və faydalarını görə biləcəyik.

**Mübariz GÖYÜŞLÜ**

*Müasir İnkişaf Birliyinin sədri, siyasi şərhçi*

# UNİKAL HƏYAT



Əmim oğlanları Bakıdan gəlmişdilər. Tələbə idilər. Nənəmə Qoqo deyirdilər. Zarafata salıb dedilər ki, Qoqo, getdik sənlə şəkil çəkdirməyə. Onda mənim 4-5 yaşım olardı. Məni də götürdülər. Biz getdik Söyün (Hüseyn) müəllimgilə. Sovet hökümətinin axar-baxarlı vaxtı idi. Uşaqlıqda yaşadığım o qiymətli həyatı yazaraq xatirəmdə təsəvvür edirəm.

Balaca bir həyət, deyəsən taxtadan ev... nəsə xatirimdə elə qalıb. Balaca tək qapıdan həyətə daxil olduq. Rus kəndlərindəki həyətlərə oxşayırdı. Gül-çiçəkli sadə tərtibat... Fotoqraf divarının parçası önündə bizi saxladı. Nənəm, mən və əmioğlanları birlikdə şəkil çəkdirdik (o şəkil indi də qalır). Söyün müəllim başında şilyapa, qara kostyumda, balaca, arıq bir adam idi. Xanımı da eynən sadə geyimdə qəşəng bir xanım. Hər ikisi ətrafda gördüyüm insanlardan fərqli idi. Mənə elə gəldi, kənd içində tamam başqa bir dünyanın adamlarıdılar.

Həyətdən çıxanda dedim ki, ev də, adamları da kinoya oxşadı. Xeyli güldülər və uşağın qiymətləndirməsi qohumlar arasında bir ara danışıldı. Əmim də Söyün müəllimlə birlikdə işləmişdi.

Ona demişdi ki, sənin unikal həyatını bizim balaca uşaq xarakterizə etdi. Uşaq neyləsin, kənddə hamı ikimərtəbəli ev tikdirir, geniş həyət, bağ-bağça yaradır, mütləq maşın da almalıdır və s. Bu cür mühitdə sadə bir yaşam tərzi qeyri-adi uşağın diqqətindən qaçardımı heç?

Hüseyn müəllim 1928-ci il təvəllüdündən olan kənd uşaqlarından olub, onlar yeddi nəfər birlikdə Gəncədən məzun oldular. Tarixçilər. Həmin nəsil dövründən yalnız o qalmışdı.

Bir dəfə rastlaşdıq, mən onu uşaqlıqda görmüşdüm, qocalsa da imic əvvəlki idi. Artıq 90 yaşı keçmişdi. Özümü təqdim etdim. "Siz mənim uşaqlıq yaddaşımda həmişə maraqlı adam kimi qalıbsız. Haqqınızda yazmaq istərdim" dedim. "Məmnuniyyətlə" dedi. Çox təəssüf ki, pandemiya dövrü başladı. Mühit sabitləşsin deyərkən əcəl öz işini gördü.

Tarix müəllimi kimi təyinatla Balakəndə işləyərkən Şəkidən təyinatla orada işləyən musiqi müəllimi ilə ulduzları barışır. Hüseyn müəllim həm də gözəl tar çalırdı. Bu ruh bağlılığı uzun məsafəni könül bağıyla elə möhkəm bağladı ki, bu sevda yolu Gürcüstana gəldi. Leylan valideyn narazılığına baxmadan sevgisinin ardıyca gəldi. Birgə ömür sürdülər. Beş oğul sahibi oldular.

Hüseyn müəllimin bir sirri vardı, onu hamı bilməyib birmənalı düşünsə də, həqiqət vardı ki, səbəb nəticəni yaratdı. O nəticə bu ailəni hamıdan fərqli bir yaşam tərzi yaşamağa məcbur etdi.

Gəncədə növbəti dəfə həkimə gedəndə bir yaşlı yəhudi həkim ona deyib ki, sənin ürəyində ciddi problem var. Bu ürəklə sən 25-30 yaşa ancaq çatarsan, amma yaşamaq istəyirsənsə özün özünə fərqli həyat seç. Özün üçün yaşa. Əsəb, stress, narahatlıq, gərginlik keçirmədən 100-ə də çatarsan. Ürək əzələn çox nazik, deyilənə görə nadir problem. Bax bu diaqnoz Hüseyn müəllimi hamıdan fərqləndirdi.

Özünə balaca bir ev düzəltdi, sadə, başına yağış yağmadı, soyuqda qalmadı. Müəllim oldu, fotoqraf oldu, tar, musiqi dərnəyi yaratdı, məzun olan şagirdlərə hətta evində "veçer" - buraxılış şənlikləri təşkil etdi. Bir sözlə, həyatını yalnız yaxşı, maraqlı, əyləncəli işlərə həsr etdi. Bu yolda, təbii ki, ona dəstək həyat yoldaşı vardı. Ona sərhədlər ayaqladan sevgisini qorumaq üçün bu yola yoldaş olmaq lazım idi, oldu da. Onlar birlikdə övlad böyütdülər, amma fərqli, bəlkə də əsl sovet tərbiyəsiylə. Dəbdəbəli geyindirmədilər, bəhsəbəhs yaşamadılar. Qazanc yalnız sağlam həyat tərzinə, qidalanmağa həsr olundu. Orta məktəbi bitirən oğlanlarına açıq qapı prinsipi ilə "özünüz öz yolunuzu özünüz seçin, qazanın, özünüz qazananda maraqlı və mənalı olur" dedi.

Beləliklə, yaşamaq üçün yedi, yaşamaq üçün həyat tərzi seçdi. Bu tərz onu doğrudan da 100-ə yaxınlaşdırdı. Əgər Leylanı sağ olsaydı, əlbəttə, çatardı.

Mən öz qadın təxəyyülümlə mütləq surətdə inanıram ki, bu həyat tərzi Leylan müəllimdən keçdi, yəni əsasını qoydu, Söyün müəllim dəstəklədi.

Leylan müəllim də kənddə musiqi müəllimi idi. Deyilənə görə, elə bir qız şagird yox idi ki, başını tumarlamasın, əzizləməsin, hətta tənəffüsdə ehtiyacı olan bəzi qızların saçını hörərdi. Olduqca sadə, səmimi, xoşrəftar biriymiş. Şəki mətbəxinin Borçalıda, Qaçağanda təmsilçisi idi, amma özünəməxsus şəkildə.

Hüseyn müəllim 1 saylı, Leylan müəllim 2 saylı məktəbdə işləyirdi. 2 saylı məktəbdə Hüseyn müəllimin iki tələbə yoldaşı işləyirdi. Bir gün Marks müəllim deyib ki, "Söyünə de axşam sizdəyik, tələbəliyi yadımıza salarıq". Onlara yoldaşlıq edən bir müəllim danışır ki, "öyrəşmişik axı bizim süfrədə nələr olacaqdı, pörtdəmədən plova, çaxırdan samaqona, pendirdən turşuya, amma biz nə gördük 45 il əvvəl, bax indi gördüyün balaca qapıdan həyətə daxil olduq, həmin ev, həyət gül-çiçək, dibçəklər, plovun ətri adamı bihuş edirdi. Hüseyn müəllim tar çalır, Leylan müəllim oxuyur. Süfrəmiz hazır. Şəki plovu - şüyüdlü plov, göyərti, vəssalam. İçkimiz də darçınlı çay. Mənim üçün yeni idi, amma daimi qonaqları bunu adi qarşılayırdılar, axı əsas məsələ qarşılandığımız ab-hava idi, məclis o qədər maraqlı, səmimi idi ki, heç ayrılmaq istəmirdik..."

Leylan müəllim qardaşı qızı Zeynəbi özünə gəlin seçdi.

Hər gün kənd mərkəzində qəssabxanada heyvan kəsilərdi, ətraf kəndlər də buradan gəlib ət alırdılar deyə Hüseyn müəllim tezdən gəlib bir ət parçasını götürüb gedərdi.

Hüseyn müəllim gözəl tar, qarmon çalardı. Bundan əlavə fotoqraflıq qabiliyyəti də vardı. Bəlkə də musiqi və fotoqrafiya xobbi idi, amma yeni texnologiya çıxana qədər işini davam etdirdi. Tamahkarlığı yox idi. 10 nəfərin şəklini çəkirdi, 3-5 adam pul verirdi. Almayanlara aparıb şəkilləri özü verərdi. Maraqlı şəkillər də çəkərdi, qəflətən, xəbərsiz, sonra həmin maraqlı şəkilləri sahiblərinə verəndə insaflılar pulunu ödəyərdi, insafsızlar çəkməyəydin deyə minnət qoyardılar.

Hüseyn müəllimin arxivində hətta qonşu kəndlərin əhalisinin xeyli qeyri-adi şəkilləri var.



Yaşadığı 94 ildə heç bir insan deyə bilməzdi ki, Söyün müəllim mənim xətrimə dəyib. Qarışqanı belə tapdalamayan adam idi. Bəlkə əvəzsiz desək daha yerinə düşər.

İllərlə öz imicini itirmədi, qara kostyum-smokinq, qara şlyapa, qara bığ, bu imic ölən günə qədər qaldı, hətta Leylansız keçən zamanlarda belə bədbinləşmədi, həyata bağlılığı azalmadı, öz adını, imicini, görkəmini dəyişmədi, necə deyərlər, dərdə əyilmədi. O yalnız yaxşı söhbətlərə qarışardı, danışardı, xoş münasibətlər üçün yaxınlaşardı, elə



ki mövzu dəyişirdi, kirmişcə oradan uzaqlaşardı.

Söyün müəllim heç bir yas yerinə getməzdi, əlbəttə, bir dəfə kənddə "öldü" sədası çıxan, hətta qəbir yeri də qazılan və sonradan həyata qayıdan bir insanın yəqin bunu əsaslandıracaq fikri vardı. Onu heç ondan soruşmadılar və o da səbirli, hər adamla mübahisə edib əsəb xərcləyən adam deyildi, amma mən əminəm ki, onun yas yerindən yayınmağının əsası elə mən düşünən idi. Çox toylarda şəkillər çəkərdi, çox vaxt haqqının az faizini alardı.

Bu gün uşaqlarımızın hər addımı üçün narahat oluruq, uşaq gözümüzün qarşısında olsa belə pislərə qoşular, əməli azar deyə nə qədər narahatlıq edirik. Söyün müəllim beş oğul böyütdü. Leylan müəllim həm işlədi, həm iki otaqda beş uşaq böyütdü, o uşaqlar bir dəfə o odun peçinə dəymədilər, bir dəfə bir-birinin qolunu sındırmadılar, orta məktəbi bitirib valideynin indi gedin öz ayağınız üstə dayanın deməsiylə Xarkov şəhərinə üz tutdular. Təhsil aldılar, işlədilər, evləndilər, bu gün beşi də nəvə, nəticə sahibidilər. Heç biri nə pis yola düşdü, nə oğru oldu, nə əyri. Deməli tərbiyə mənbəyi düz istiqamətlənmişdi. O böyük imarətlərin səhv xətti cinayətə aparır, nəinki Söyün müəllimin yeddi nəfərin yerləşdiyi mənən böyük əsl insanlıq iqmətgahı.

Söyün müəllim də Leylan müəllim kimi elə xəstə yatmadı. Bir neçə gün artıq özümü yaxşı hiss etmirəm dedi.

Amma çox fikirli, qəmgin imiş. Oğlanlarına xəbər ediblər. Onlar gələndə gümrahlaşıb, sanki hər şey keçdi kimi. Onlar qayıdandan sonra qonşuya deyib ki, "elə yaxşıyam, elə yaxşıyam, heç belə yaxşı olmamışdım. Elə bil üstümdən dağ götürülüb". Bu danşıqdan iki saat sonra həqiqətən də çox nadir, bəlkə də yeganə olan həyat tərzini yaşamış bu unikal insan sevdiyi, sevgisiylə gözəlləşdirməyə çalışdığı həyatla əbədi vidalaşdı. Ölməmişdən qabaq sevimli tarını nəticəsi Hüseynə hədiyyə etmişdi.

Bu mənim Söyün müəllim haqqında deyəcəklərimin çox az bir hissəsidir. Doğrudan da o çox fərqli, nadir bir insan idi. Ölümə meydan oxudu, özü seçdiyi yolla qalib gəlməyi bacardı.

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## SOSİUM
## 8. TƏMİZLİK İMANDANDIR



*(əvvəli ötən sayda)*

Niderlandda gördüyüm, az qala insanı hər addımda kabus kimi izləyən təmizliyin aşırı dərəcədə nəzərəçarpan olması bu mövzudan ayrıca bəhs etməyimə səbəb oldu. Digər tərəfdən də Niderlandın böyüklü-kiçikli əksər yaşayış məntəqələrində diqqətimi özünə çəkən bu məsələdən hər bölümdə söhbət açmaq yükündən özümü qurtarmaq üçün bu mövzuya əlahiddə zaman ayırmam gərəkdiyini anladım.

Təmizlik imandandır. Dinimiz belə buyurur. Dinimizin bu buyruğu təkcə bizim oturduğumuz yerin, yaşadığımız məkanın təmiz saxlanmasını nəzərdə tutmur, bədənimizin, ruhumuzun da təmiz olmasını tələb edir. Bunu eşitməyən, gündəlik yaşayışında buna az-çox əməl etməyən müsəlmana rast gəlmək çətindir. Biz nə qədər təmizliksevərik? Bizim təmizliyimiz haraya qədər uzanır? Biz dinimizin bu tələbinə nə qədər əməl edirik və ya əməl edə bilirikmi? Əməl etmiriksə nədən? Sualları istənilən qədər sıralamaq da olar və həmin sualların ətrafında uzun-uzadı müzakirələr də açmaq imkanımız var. Bu suallara hərənin bir yöndən yanaşacağı, bir səmtdən cavablandırmaq istəyəcəyi, çox zaman da hərənin öz çözüm variantını ən doğru sayacağı da istisna deyil.

İndi mən söyləsəm ki, Niderland təmizliyinə görə gördüyüm ölkələr arasında ən öndə gedənlərdən biridir, burada ideal təmizlik hökmrandır, steril bir ölkədir, mənim bu fikrimi topa-tüfəngə tutanların sayı, heç də dəstəkləyənlərin sayından az olmayacaq. Birincilərin gətirəcəyi arqumentləri də bilirəm. Biri deyəcək: avropalılar hamamı, çimməyi bizdən öyrənib. Bir başqası dillənəcək ki, deməzsənmi kanalizasiya Şərqdən mənimsənilmə bir zaddır. Üçüncüsü daha uzağa gedib ayaqyolunun bizim icadımız olmasından dəm vuracaq. Bunları bilirəm. Bu adamların söylədiklərindəki həqiqət payından da xəbərim var. Mən həmin adamlara üzümü tutub desəm ki, sizin dedikləriniz doğrudur, amma bu doğrular bizim bugünümüzün doğruları deyil, dünənimizdə olmuş hadisələrdir. Onlar mənimlə razılaşacaqlarmı? Onların mənə nə cavab verəcəklərini bilmirəm. Mən bu günün Avropasından danışıram, bu günün Avropasının təmizliyindən, sterilliyindən bəhs edirəm. Belə yerdə demirlərmi: atanla atamı deyincə, özünlə özümü desən. Mən çanağından çıxıb, çanağını bəyənməyənlərdən də deyiləm. Hansı ailədə böyüdüyümü, hansı mühitdə tərbiyə aldığımı bir an da olsa unutmayan biriyəm. Yolu and yerinə çevirib ona baxmaq istəməyən, əlinə keçən hər şeyi onun üzünə çırpan, ağzının-burnunun olanını hara gəldi boşaldan, suya and içib, məişət tullantılarını hələ də suvarma kanallarına atan bir cəmiyyətdən çıxdığını da əsla yaddan çıxarmayan adamam. Sözümün təsdiqi kimi, mən sizi şəhərlərimizin, kəndlərimizin küçə və meydanlarına, su hövzələrinə ötəri də olsa bir gəzintiyə dəvət etsəm, inanmıram ki, könülaçan bir mənzərə ilə qarşılaşasınız. Qalaq-qalaq, yellərin havaya sovurduğu siqaret kötüklərinə, kağız qırıntılarına, şüşə, metal, plastik içki qablarına hər addımda rast gələcəyimizi inkar edən kimsə olmayacaq. Arxa yollarımız da, ana yollarımız da bir-birinə bənzəyir. Maşınların əzdiyi pişik, it leşlərinin günlərlə yol kənarlarında üfünət saçanadək qaldığını gözlərimizlə azmı görmüşük? Bir deyil, beş deyil, hansını deyəsən?!

Avropanın da bizdən öyrəndikləri, mənimsədikləri var. Mübahisə etmirəm. Avropa mənimsədiklərini özününküləşdirməyi bacarmış, başqa xalqlardan öyrəndiklərini öz həyatına tətbiqində heç bir qüsura yol verməmədiyindən, bu gün bizim təsəvvür etdiyimizdən də irəli gedib və keçmişinə ilişib qalanların çağdaş Avropa dəyərlərinin səviyyəsinə nə vaxt çatacağı da bəlli deyil.

Mən nə doğulub boya-başa çatdığım Qarayazının beş addımlığında yerləşən və hər görüşümdə ruhi rahatlıq tapdığım Tiflisdə, nə gəncliyimin ən gözəl anlarını yaşadığım Bakıda, nə xəyallarımın şəhəri İstanbulda, nə sovetlərin hər mənada beyin mərkəzi Moskvada, nə Rusiyanın Avropa üzü sayılan Sankt Peterburqda və nə də başqa bir yerdə Niderlandın istənilən məkanında rastlaşdığım təmizliyə, səliqə-sahmana bənzər mənzərəyə rastlaşmamışam.

Xalqların tarix boyu bir-birindən istər maddi, istər mənəvi dəyərləri əxz etməsi faktı inkar edilməzdir. Avropalılar da inanmıram ki, haradansa – istər şərqdən, istər cənubdan öyrəndiklərini inkar etmək kimi bir addım atsınlar. İbn Sinanı, İbn Rüşdünü yüzillər boyu yaşadanlar da avropalılar deyilmi? Bu gün bizim minib səyirtdiyimiz maşınların əksəriyyəti Avropanın maşın qəbiristanlıqlarının girişindən geri qaytarılanlardır. Bu gün bizim can atdığımız, görmək istədiyimiz, təhsili ilə bir pillə yuxarıda duracağımızı dəqiq bildiyimiz, zənginlərimizin villalar aldığı, mühacirlərimizin sığındığı, müəyyən şeyləri bizdən mənimsədiyini bildiyimiz də həmən Avropadır. Avropadan öyrəndiklərimizi dana bilmərik. Müasir məktəbləri, müasir maarif sistemini Avropadan mənimsəməklə mədrəsə-mollaxana təhsilindən çıxdığımızı da – ancaq yenə də bir çoxumuzun təkrar ora qayıtmaq istədiyini də deməsəm olmur – unuda bilmərik. Hərçənd ki, müasir tipli, ilk universitetlərin müsəlman aləmində meydana gəldikdən sonra avropalılar tərəfindən mənimsənilməsi faktı da ortadadır. Avropa universitetlərinin ildən ilə artan şöhrəti ilə müqayisədə bu gün İslam ölkələrində mövcud olan universitetlərin nə qədər geridə qaldığını söyləməmiz yetərlidir. Şərq ölkələrindən Qərbə gəlib, bir ətək pul xərcləyərək, təhsil almaq istəyənlərin hər ötən gün saylarının artması da dediklərimizi təsdiqləmirmi? Əgər Şərqdə təhsilin səviyyəsi yüksəkdirsə, şərqlilərin burada nə işi var? Südlü qoyun sürüsündən niyə aralı düşməlidir ki?

Bu, Şərqə səkkiz xaç yürüşü təşkil edən həmin Avropadır. Bu yürüşlər nəticəsində yüzminlərin qurban getdiyini nə qərbli, nə şərqli, heç kim dana bilməz. Səlib müharibələrinin avropalılar üçün necə başa çatmasını da bir kənara qoyaq. Bu savaşlardan sonra Avropa şəhərlərinin simasının dəyişdiyini, mətbəxində yüzlərlə ədviyyatdan istifadə edildiyini, evlərində, məhəllələrində hamamların peyda olduğunu, Avropa saraylarında Şərq şahlarının həyat tərzinə bənzər dəbdəbənin tətbiqini, bundan sonra Avropa şəhərlərində ilk universitetlərin qurulduğunu və bunun Avropa universitetlərinin ildən ilə artan şöhrəti ilə müşaiyət olunduğunu kim inkar edə bilər? Bütün bunlar dünən – keçmişdə baş verənlərdir.

Niderlandda üfünət yayan, xəstəlik mənbəyi zibil qutularına rast gəlməzsən. Müasir binaların birinci mərtəbəsində qapısı germetik bağlı olan, zibil qutularının sıralandığı xüsusi bölüm quraşdırılır. Həmin zibil qutularına sakinlər çeşidlənmiş məişət tullantılarını atırlar. Kağız-karton üçün ayrı, taxta qırıntıları üçün fərqli, qarışıq zibilin atılması üçünsə başqa qutular qoyulur. Kiçik evlərdən ibarət məhəllələrdə isə, yeraltı konteynerlər quraşdırılır və həftənin müəyyən günləri xüsusi kranları olan təmizlik maşınları həmin konteynerləri boşaldıb, təkrar yerin altındakı yuvalarına yerləşdirirlər. Bu konteynerlərin üstünlüyü heç nəyə, heç kimə mane olmamasındadır. Əsas gövdəsi yerin altında yerləşdiyindən çox yer tutmaması ilə də diqqəti cəlb edir. Maraqlı təcrübədir, öyrənməyə dəyər. Vətəndaşlar çeşidlədikləri tullantıları bu konteynerlərin müvafiq gözündən içəri atırlar. Şüşə qabların rənginə uyğun atılması üçün bu konteynerlərin bir neçə gözü olan xüsusi bölməsinin olması da gözdən yayınmır. Əski geyimlərin toplanması ilə məşğul olan şirkətlər bunun üçün bələdiyyədən icazə alaraq, xüsusi konteynerləri müəyyən olunmuş yerlərə yerləşdirirlər.

Şəhərlərdə hər addımda rast gələ biləcəyimiz kiçik zibil qutuları isə gəzib-dolaşan insanların, siqaret çəkənlərin istifadəsi üçündür. Üzərində köpək şəkli olan qutular isə, adətən onların tualetləri üçün istifadə olunur. Köpək sahibləri köpəklərinin rahatlandıqdan sonra geridə buraxdıqları pislikləri xüsusi torbalarda bu cür qutulara atmalıdırlar. Başqa yolu yoxdur. Cəza yeyə bilərsən. Vəssalam.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**

Niderland

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.* *31 DEKABR 2021-Cİ İL №024 (147)*

## ABXAZİYA MÜHARİBƏSİNDƏ HƏLAK OLMUŞ ƏNVƏR HÜMBƏTOVUN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI PETİSİYA HAZIRLANIB



Abxaziya müharibəsində (1992-1993) həlak olmuş Ənvər Hümbətovun doğulduğu Marneuli rayonunda xatirəsinin əbədiləşdirilməsi ilə bağlı petisiya hazırlanıb.

Sənəd bu gün şəhidin yaxınlarının iştirakı ilə Marneuli sakrebulosuna təqdim olunub.

Təşəbbüsün müəllifi ictimai fəal Samirə Bayramovanın sözlərinə görə, Ə.Hümbətovun adının yaşadılması üçün bir neçə təklif irəli sürülüb: "Həmin təkliflərə Marneulidə yerləşən 9 Aprel memorialının yaxınlığında müharibə qəhrəmanının xatirə lövhəsi və ya abidəsinin qoyulması, ya da küçələrdən birinə onun adının verilməsi daxildir".

O bildirib ki, petisiya üçün 1 300-ə yaxın imza toplanıb ki, bu da tələb olunandan 200-300 imza çoxdur: "Təşəbbüsümüzün əsas məqsədi yerli azərbaycanlı və gürcülər arasında həmrəyliyə töhfə vermək və Marneuli sakinlərində vətənpərvərlik hissinin gücləndirilməsidir".

S.Bayramova qeyd edib ki, şəhidin həyat yoluna həsr olunacaq sənədli filmin hazırlanması ilə bağlı müəyyən planlar da var və bu istiqamətdə müzakirələr aparılır.

Fatma Hümbətova həyat yoldaşının xatirəsinin əbədiləşdirilməsi ilə bağlı təşəbbüsü alqışlayıb və S. Bayramovaya minnətdarlığını bildirib: "Ənvərin adının yaşadığı Rustavi şəhərində küçələrdən birinə verilməsini də istərdik. Təşəbbüsün ərsəyə gəlməsində səylərini əsirgəməyənlərə təşəkkür edirəm".

Müraciətin təqdim edilməsindən öncə Marneuli meriyasının binası qarşısında Ə.Hümbətovun fotoşəkilləri və haqqında məlumatlar nümayiş olunub.

Qeyd edək ki, Ə.Hümbətov 1950-ci ilin yanvarın 1-də Marneulinin Məscidli Görarxı kəndində anadan olub. O, 1993-cü il iyulun 4-də Abxaziya müharibəsi zamanı hərbi tapşırığı uğurla yerinə yetirib, geri dönərkən pusquya düşərək mühasirədə qalan dəstəni xilas edib və 43 yaşında şəhid olub. Döyüşçünün bu fədakarlığı sayəsində 25-30 nəfərin ölümdən xilas olunduğu bildirilir.

O, 1994-cü ildə "Döyüş meydanında göstərdiyi igidliyə və cəsurluğa görə" "Vaxtanq Qorqasali" ordeni ilə təltif olunub. Tbilisinin mərkəzi "Qəhrəmanlar meydanı"nda 2010-cu ildə açılan, Gürcüstanın müstəqilliyi və bütövlüyü uğrunda canlarından keçənlərin xatirəsinə həsr olunan "Qəhrəmanlar qülləsi" xatirə abidəsində Ənvər Hümbətovun da adı qızılı hərflərlə həkk olunub.

*Mənbə: report.az*

## AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLƏRİ ATTESTASİYADAN KEÇİRİLƏCƏK



Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərdə dərs deyən Azərbaycan dili və ədəbiyyatı müəllimləri 2022-ci ildən etibarən Azərbaycan dilində attestasiya imtahanından keçə biləcək.

Bu barədə Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi məlumat yayıb.

Bildirilib ki, mərkəz ölkənin Təhsil və Elm Nazirliyinin müvafiq qərarına uyğun olaraq, Azərbaycan dili və ədəbiyyatı müəllimləri üçün 2022-ci ildə öz ana dillərində keçiriləcək imtahanların hazırlanmasına başlayıb.

Məlumatda qeyd olunub ki, bu cür qiymətləndirmə Gürcüstanda ilk dəfə həyata keçiriləcək.

Qeyd edək ki, hazırda qaydalara görə digər fənn müəllimlərindən fərqli olaraq Azərbaycan dili və ədəbiyyatı müəllimləri attestasiya imtahanı verə bilmirdilər. Bu səbəbdən onların baş müəllim statusu alması mümkün deyildi.

Müvafiq qərar ölkənin ermənidilli məktəblərinə də şamil edilib.

*Mənbə: apa.az*

## SEVDAGÜL ADI GÜRCÜSTANDA QEYRİ-ADİ ADLAR SİYAHISINA DAXİL EDİLİB



Dövlət Xidmətlərinin İnkişafı Agentliyi ölkədə ən çox yayılmış soyadların ilk onluğunu yeniləyib. Siyahıda 5-ci yeri Məmmədov, 8-ci yeri isə Məmmədova soyadı tutub.

İlk onluğa əsasən, Gürcüstanda Məmmədov soyadlı 14 945, Məmmədova soyadlı isə 13 071 nəfər var.

Əliyev soyadı isə kişi soyadları arasında populyarlığına görə 4-cü, Əliyeva isə qadın soyadları sırasında 5-ci yerdədir. Gürcüstanda Əliyev soyadını 9 084, Əliyeva soyadını isə 9 079 nəfər daşıyır.

Ölkədə Beridze soyadı ən çox rast gəlinən soyad olaraq qalır. Bu soyadı daşıyanların sayı 29 684 nəfər təşkil edir.

Həmçinin Gürcüstanda nadir rast gəlinən adların siyahısında Sevdagül adı da var. 18 qeyri-adi adlar arasında Milyard, Kukuşa, Fizika, Pele, Nyuton, Nektar kimi adlara da rast gəlinir.

## PAYTAXTIN İCTİMAİ NƏQLİYYATI YENİ ÖDƏNİŞ SİSTEMİNƏ KEÇİR



Paytaxt Tbilisidə ictimai nəqliyyatda gediş haqqının ödənilməsi üçün yeni sistem tətbiq olunacaq. Sərnişinlər limitsiz abunə sistemindən 2022-ci ilin fevralın 1-dən etibarən istifadə edə biləcəklər.

Yeniliyə əsasən, avtobus, metro və "marşrut" taksilərində birdəfəlik gediş haqqı 1 lari təşkil edəcək.

Limitsiz abunə kartları müxtəlif müddətli – 1 günlük (3 lari), həftəlik (20 lari), aylıq (40 lari), 3 aylıq (100 lari), yarım illik (150 lari) və illik (250 lari) olacaq. Onlar yanvarın 5-dən satışa çıxarılacaq.

Qeyd edək ki, hazırda Tbilisidə ictimai nəqliyyatda birdəfəlik gediş üçün 50 tetri ödənilir.

## TAKSİLƏRDƏ SİQARET ÇƏKMƏK QADAĞAN EDİLİB




Gürcüstan parlamenti növbədənkənar iclasında birinci oxunuşda taksilərdə, su nəqliyyatında və şəxsi nəqliyyat vasitələrində yetkinlik yaşına çatmayanların tütün məmulatlarından istifadəsini qadağan edib.

Taksi və su nəqliyyatında siqaret çəkmək 200 lari, azyaşlıların yanında şəxsi avtomobildə yeni qaydalara etinasızlıq 50 lari cərimələnəcək. İl ərzində təkrar pozuntular halında pul sanksiyaları ikiqat artacaq.

Gürcüstanda 2018-ci ildən siqaretə qarşı mübarizə gücləndirilib. Restoran, bar və kafelərdə siqaret çəkməyi qadağan edən ilk qanun da həmin dövrdə qəbul edilib. Daha sonra hökumət tütün məmulatlarına aksiz vergisini artırıb.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.